*Abbasov Anar Fazil oğlu ,*
*iqtisad elmləri doktoru, dosent,*
*Azərbaycan Kooperasiya Universiteti*
*Email: anar1973@mail.ru*

# İQTİSADİ MODERNLƏŞMƏ, ONUN MAHİYYƏTİ VƏ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

**İqtisadi modernləşmənin nəzəri əsasları.** İqtisadiyyatın modernləşdirilməsi iqtisadiyyatın strukturunda strateji dəyişikliklərin həyata keçirilməsi, eləcə də iqtisadi və sosial proseslərin idarə edilməsinə təsir edən resursların təkmilləşdirilməsi, elmi-texniki yeniliklərin tətbiqi istiqamətlərinin sürətləndirilməsi ilə bağlı zəruri tədbirlərin gerçəkləşdirilməsi ilə sıx bağlıdır. İqtisadiyyatın modernləşdirilməsində başlıca məqsəd əmək məhsuldarlığının yüksəldilməsinə nail olmaqla istehsalın intensivləşdirilməsi əsasında dövlətin və cəmiyyətin ehtiyaclarının ödənilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi nəzərdə tutulur. Müasir şəraitdə iqtisadiyyatın modernləşdirilməsi iqtisadiyyatın sahə və ərazi kəsimlərdə innovasiya proseslərinin gerçəkləşdirilməsini özündə ehtiva etməklə yüksək keyfiyyətli məhsul istehsalının təmin edilməsi, onun dünya bazarına çıxarılması və rəqabət qabiliyyətinin yüksəldilməsinə istiqamətlənmiş zəruri tədbirlərin gerçəkləşdirilməsi ilə səciyyələnir.

Modernləşmə müəyyən bir obyektin və ya prosesin yenilənməsi, yəni inkişaf etmiş oxşar obyektlərə, proseslərə xas xüsusiyyətlər vermək məqsədilə həmin obyektlərin dəyişdirilməsi köklü şəkildə dəyişikliyə uğraması kimi nəzərdə tutulmalıdır. Ən bəsit anlamda modernləşmə dedikdə ilk növbədə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərin istehsalata tətbiqi əsasında məhsuldarlığın səviyyəsinin yüksəldilməsi və məhsul vahidinə çəkilən xərclərin aşağı salınmasına istiqamətlənmiş proseslərin məcmusu başa düşülür.

Modernləşmənin iqtisadi forması, yəni iqtisadi modernləşmə iqtisadiyyatın daha yüksək inkişaf mərhələsinə daxil olması və bu istiqamətdə davamlı olaraq mərhələlər-

lə, təkamül yolu ilə iqtisadi proseslərin intensivləşdirilməsi kimi dəyərləndirilir. İqtisadi modernləşmənin sürətlənməsinə istiqamətlənmiş institusional nəzəriyyə ilk növbədə iqtisadi institutların təkamülünü və hər şeydən əvvəl xüsusi mülkiyyətin tətbiq imkanlarının genişləndirilməsi və iqtisadi subyektlərin azadlığının təmin edilməsinə istiqamətlənmiş proses kimi vurğulanır. İqtisadi modernləşmənin səciyyəvi cəhətlərindən biri də ondan ibarətdir ki, modernləşmənin bu forması əslində həm iqtisadi cəhətdən geri qalmış ölkələrin və həm də iqtisadi cəhətdən sürətlə irəliləyən ölkələrin milli iqtisadiyyatının yeni model keyfiyyət dəyişikliklərinə yönəldilməsi istiqamətində gerçəkləşdirilən bir proses kimi dəyərləndirilir. İnkişafdan geri qalmış və istərsə də inkişaf etmiş ölkələrin iqtisadiyyatının modernləşdirilməsi prosesi əslində cəmiyyətdə mövcud sosial-iqtisadi proseslərin, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafına uyğunlaşdırılmasına, ona adaptasiya olunmasına yönəldilmiş bir proseslərdir. Geri qalmış iqtisadiyyatın modernləşdirilməsi təbii ki, inkişaf etmiş ölkələrin iqtisadiyyatındakı modernləşmə prosesindən nəzərəçarpacaq dərəcədə fərqlənir. İnkişaf etməkdə olan ölkələrdə, daha doğrusu, geri qalmış ölkələr üçün iqtisadi modernləşmə əslində həmin ölkələrin iqtisadi cəhətdən geriliyini aradan qaldırılmasına istiqamətlənmiş tədbirlərin məcmusu kimi dəyərləndirilməlidir. Bu baxımdan inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının sürətləndirilməsinə və keyfiyyətcə yeniləşdirilməsinə istiqamətləndirilmiş tədbirlərin məcmusu kimi dəyərləndirilən modernləşdirmə əslində inkişaf etmiş ölkələrin iqtisadiyyatına yetişmək, onlara çatmaq istiqamətində tətbiq edilən tədbirlərin məcmusu kimi xarakterizə olunur.

**İqtisadi modernləşmə qloballaşma aspektində.** Amerikan sosioloqu Qrek Kalten qloballaşma və modernləşmə ilə bağlı apardığı tədqiqatlardan belə qənaətə gəlir ki, əslində, modernləşmə nəzəriyyəsi XX əsrin ortalarında ABŞ-da meydana gəlməklə Avropada müstəmləkə imperiyalarının dağılması nəticəsində Asiya, Afrika, Latın Amerikasında yaranan çoxsaylı müstəqil dövlətlərin o zamankı kommunist cəmiyyətə meyllənməsinin qarşısının alınmasına alternativ olaraq meydana çıxmışdır [1]. Doğrudan da, əslində keçmiş sosialist ideyalarına yönəlmə prosesinin qarşısını almaq məqsədi ilə XX əsrin sonlarına qədər modernləşmə inkişaf etməkdə olan ölkələrin qlobal cəmiyyətə inteqrasiyasına yönəldilmiş və inkişaf etmiş ölkələrin sosial-iqtisadi cəmiyyətinə yaxınlaşmaq ideyaları adı altında daha çox populyarlıq kəsb etməyə başlamışdır.

Doğrudur, bir sıra Qərb iqtisadçıları, o cümlədən S.Hankinkton, R.İngliqart, S.Elisimştat və digərləri hesab edirdilər ki, inkişaf etmiş ölkələrin təcrübələrinin mexaniki surətdə təkrarlanması əslində inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının sürətləndirilməsində o qədər dərəcədə əhəmiyyətli rol oynamır. Modernləşmə nəzəriyyəsində irəli sürülən digər dəyərlər demokratiya adı altında inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi həyatına əhəmiyyətli dərəcədə nüfuz etməyə başladı və bu, sonralar inkişaf etmiş ölkələrdə qərb dəyərlərinin əsasında inkişaf etməkdə olan ölkələrin rasional bir davranış sərgiləməsini səciyyələndirən institutsional bir cəmiyyətin formalaşdırılmasına təkan verdi. Bütün bunlara baxmayaraq, demək olar ki, Asiyanın yeni sənaye ölkələrində alternativ bir ssenarilər də mövcud oldu və bu ssenarilər əslində qərbləşmədən modernləşmə prosesinin formalaşdırılmasına əlverişli şərait yaratdı. Asiyanın yeni sənaye ölkələrinin təcrübəsində əslində modernləşmə prosesi ekoloji modernləşmə və eləcə də bilik və informasiya cəmiyyətinə keçid kimi də səciyyələnirdi [2].

İnkişaf etməkdə olan ölkələrdə, inkişaf etmiş ölkələrin iqtisadiyyatına yaxınlaşmaq istiqamətində tətbiq edilən modernləşmə prosesi ölkədə adambaşına düşən ümumi daxili məhsulun həcminin yalnız artmasına deyil, eyni zamanda, digər iqtisadi inkişaf göstəricilərinin səviyyəsinin də yüksəldilməsini nəzərdə tutur. İnkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmənin səviyyəsi arasındakı fərqləri xarakterizə edərkən belə bir tarixi nümunəni də unutmaq sadəlövhlük olardı. Belə ki, XX əsrin 2-ci yarısında inkişaf baxımından İngiltərədən geridə qalan Almaniya, ABŞ və digər ölkələrdə yeni yaradılmış sənaye sahələrini xarici rəqabətin əlverişsiz təzahürlərindən qorumaq üçün həmin ölkələr, yəni Almaniya, ABŞ və digər ölkələr fəal himayədarlıq siyasətinə üstünlük verməyə başladılar və beləliklə hazır məhsullara idxal rüsumları təxminən 40%-ə qədər yüksəldildi. Bundan əlavə, Yaponiya iqtisadiyyatın dövlət tənzimlənməsindən, dövlət dəstəyindən fəal şəkildə istifadə etməyə başladı və eləcə də ixracı təşviq və idxalın əvəz olunmasına istiqamətlənmiş tədbirlər gerçəkləşdirdi. Bu da mahiyyət etibarilə iqtisadi modernləşməyə dövlət dəstəyini səciyyələndirən amillərdən biri kimi xarakterizə oluna bilərdi.

Yaponiyada iqtisadiyyatın dövlət tənzimlənməsi prosesindən modernləşmə prosesinə dəstək məqsədiylə istifadə edilməsi, ilk növbədə, iri milli şirkətlərin xarici rəqabətdən qorunması nəticəsində həyata keçirilirdi.

**İnkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmə prosesinin səciyyəvi cəhətləri.** İnkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmə prosesinin səciyyəvi cəhətləri kifayət qədər fərqlidir və bütün bunlar iqtisadi sistemin tipindən və xarakterindən əhəmiyyətli dərəcədə asılı olur. Belə bir faktı da göz ardına vurmaq mümkün deyildir ki, XX əsrin təxminən 30-40-cı illərində və eləcə də sonrakı dövrlərdə keçmiş Sovetlər Birliyi sənayeləşmə prosesini sürətləndirmək və sənayenin inkişafını müasir tələblərə uyğunlaşdırmaq məqsədi ilə demək olar ki, tam mənası ilə iqtisadiyyatda dövlət sektorunun genişləndirilməsinə üstünlük verdi və eləcə də dövlət büdcəsindən iqtisadi xərclərin kəskin artmasına istiqamətlənmiş zəruri tədbirlər gerçəkləşdirdi. Bundan əlavə, SSRİ-nin praktikasında xarici ticarətin dövlət inhisarı tam mənası ilə iqtisadi planlaşdırmanın və mərkəzləşdirilmiş iqtisadi münasibətlər sisteminin ən mühüm elementlərindən birinə çevrilmişdi.

İnkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın modernləşdirilməsi prosesi yalnız iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin inkişaf tempinə yaxınlaşmaqla bağlı prosesləri gerçəkləşdirmək məqsədi ilə həyata keçirilmir. Eləcə də inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın modernləşdirilməsinə istiqamətlənmiş tədbirlər ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını, sənayenin neft və kənd təsərrüfatı xammalına olan tələbatını ödəmək və bundan əlavə, iqtisadiyyatın inkişafının sürətləndirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi ilə bağlı prosesləri nəzərdə tuturdu ki, bu da cəmiyyətin yaşam ehtiyaclarının effektiv şəkildə qarşılanması, dövlət büdcəsinin imkanlarının genişləndirilməsi, iqtisadi və sosial infrastrukturun səviyyəsinin yüksəldilməsi hesabına zəruri ehtiyacların təmin edilməsinə xidmət edirdi. Məhz bütün bunların nəticəsi idi ki, XX əsrin ortalarından etibarən dünyanın inkişaf etməkdə olan ölkələrinin əksəriyyəti, xüsusilə də müstəmləkə prosesini yaşamış və bu prosesdən çıxmış ölkələrin əksəriyyətində iqtisadi modernləşmənin bu və ya digər özünəməxsus növ müxtəliflikləri tətbiq edilməyə başladı. Ümumiyyətlə, həmin dövrdə adıçəkilən ölkələrin təcrübəsindən çıxış etsək belə qənaətə gəlmək olar ki, həmin ölkələr daha çox öz iqtisadi reallıqlarına uyğun modernləşdirmə prosesləri gerçəkləşdirməyə başlayırdılar.

**İnkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmənin tarixi aspektləri.** Müşahidələr və təhlillər göstərir ki, XX əsrin ortalarından etibarən müəyyən müddət ərzində inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın modernləşdirilməsinə istiqamətlənmiş tədbirlər əsas etibarilə xarici ticarət şərtlərinin əlverişli şəkildə mövcud olmasına istiqamətlənmiş prosesləri nəzərdə tuturdu və bu proses daxili bazarın xarici rəqabətin əlverişsiz təzahürlərindən müdafiə edilməsi və idxalın əvəz edilməsinə yönəldilmiş ixracın təşviqi ilə bağlı proseslərin gerçəkləşdirilməsi ilə xarakterizə olunurdu. İnkişaf etməkdə olan ölkələrdə modernləşməni səciyyələndirən ən mühüm məqamlardan biri də onunla bağlı idi ki, həmin ölkədə milli inhisarlara dəstək məqsədiylə milli iqtisadiyyatın fəal dövlət tənzimlənməsi gerçəkləşdirilir, milli kapitalın ixracını əngəlləmək, ən əsası yerli valyutanın məzənnəsini qorunub saxlanılması istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi, hətta bu prosesin inzibati qaydada dəstəklənməsinə istiqamətlənmiş tədbirlər də reallaşdırılırdı.

Təhlil göstərir ki, inkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmə modeli əsas etibarilə merkantalizmin bu və ya digər elementlərini özündə təmərküzləşdirsə də həmin modeli daha çox yenilikçi model adlandırmaq doğru olardı. Bütün bunlara baxmayaraq, etiraf etmək lazımdır ki, iqtisadi modernləşmənin inkişaf etməkdə olan ölkələrdə tətbiq edilən modelləri bütövlükdə həmin ölkələr üçün bu və ya digər şəkildə uğurlar və müvəffəqiyyətlər əldə etməyə imkan versə də, lakin bununla belə iqtisadiyyatda destruktiv tendensiyaların yaranmasına gətirib çıxardı. İnkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmənin tətbiq edilən modelləri əsas etibarı ilə iqtisadiyyatın sənayeləşməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsinə imkan verməklə yanaşı, iqtisadi artım sürətinin bu və ya digər şəkildə artmasını təmin etsə də, lakin bununla yanaşı, fəal himayədarlıq siyasəti mahiyyət etibarilə yerli sənayenin qorunmasına xidmət etsə də, rəqabətin zəif olduğu şəraitdə inkişaf etmiş ölkələrlə müqayisədə sənaye məhsullarının rəqabət qabiliyyətinin aşağı olmasına gətirib çıxardı. Bütün bunlar isə əsas etibarı ilə güclü dövlət müdaxiləsinin tədqiq edilməsi və sənaye sahələrinin müdafiə edilməsi ilə səciyyələnirdi.

**İnkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmənin uğursuzluq səbəbləri**. İnkişaf etməkdə olan ölkələrdə tətbiq edilən iqtisadi modernləşmə modelləri, bu və ya digər şəkilləri uğursuzluqlara uğradı. İnkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmənin yuxarıda adı çəkilən modellərinin uğursuzluqlarına gəldikdə ən mühüm məqamlardan biri də ondan ibarət idi ki, həmin ölkələrdə xüsusi mülkiyyətin məhdudlaşdırılması və iqtisadi baxımdan təsərrüfat subyektlərinin azadlıqlarının məhdudlaşdırılması prosesin müvəffəqiyyətinə mane oldu. İnkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmə prosesinin gərəkli nəticələr verməməsi, ilk növbədə, qapalı iqtisadiyyatın mövcudluğu, inhisarçılıq proseslərinin güclənməsi, iqtisadiyyatda və cəmiyyətin digər sahələrində, o cümlədən sosial və siyasi sektorlarda dövlət bürokratiyasının hakim mövqe tutması ilə səciyyələnirdi.

İnkişaf etməkdə olan ölkələrdə tətbiq edilən iqtisadi modernləşmə modelləri bu və ya digər şəkildə yarımçıq xarakter daşıyırdı. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə iqtisadi modernləşmə prosesinin demək olar ki, müvəffəqiyyətsizliyə uğraması ənənəvi sahələrin inkişafında sürətləndirmə imkanı tanımadı və ənənəvi sahələrlə yanaşı, qeyri-ənənəvi sahələrin, daha doğrusu, modern istehsal sahələrinin inkişafının sürətləndirilməsinə nail olunmadı.

İnkişaf etməkdə olan ölkələr üçün iqtisadiyyatın modernləşmə prosesinin müvəffəqiyyətsizliyini xarakterizə edən mühüm əlamətlərdən biri də həmin ölkələrdə ənənəvi sektorun qalması, əl əməyinin və bütövlükdə ev təsərrüfatlarının iqtisadi münasibətlər sistemində hakim mövqe tutması ilə səciyyələnirdi. Beləliklə, XX əsrin ortalarından etibarən təxminən 20 il ərzində gerçəkləşdirilən iqtisadi modernləşmə tədbirləri bütövlükdə inkişaf etməkdə olan ölkələrin praktikasında bu və ya digər şəkildə müvəffəqiyyətsizliyə uğradı və neoliberal modele keçidlə səciyyələnməyə başladı. Ötən əsrin 70-ci illərinin ortalarından etibarən inkişaf etməkdə olan ölkələrdə bürokratizmin səviyyəsinin məhdudlaşdırılmasına istiqamətlənmiş tədbirlər gerçəkləşdirildi və eyni zamanda, dövlət sektorunun özəlləşdirilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi özəl sektorun xüsusi çəkisinin yüksəldilməsi ilə müşahidə olundu. Bundan əlavə, valyutanın konvertasiyası ilə bağlı proseslərdə məhdudlaşdırma proseslərindən daha çox liberallaşdırmaya yönəlik tədbirlərin transveri reallaşdı. Bütün bunlar isə əslində iqtisadi modernləşmənin neoliberal modelinin tətbiqinin xarakterik cəhətləri kimi səciyyələnə bilərdi.

İqtisadi modernləşmənin müxtəlif modellərinin tətbiq edilməsi bu və ya digər ölkələrin təbii-iqlim şəraitinə, eləcə də ixtisaslaşma istiqamətinə və ölkənin təbii iqtisadi reallıqlarına uyğun olaraq gerçəkləşdirilirdi. Məsələn, Yaponiya təcrübəsindən belə qənaətə gəlmək olar ki, 1860-cı ildən etibarən 1960-cı ilə qədər, yəni yüz illik bir dövr ərzində Yaponiya iqtisadiyyatında qapalılıq və inhisarçılıq, eləcə də xarici rəqabətin demək olar ki, gerçəkləşdirilməməsi halları müşahidə edilirdi. 1960-cı ildən sonrakı dövrdə Yaponiyada demək olar ki, yeni sənayeləşmiş cəmiyyət formalaşmağa və sonradan bu proses Asiyanın digər ölkələrində özünü büruzə verməyə başladı. Məhz bütün bunların nəticəsi idi ki, 1990-cı illərdən etibarən Asiyanın sənaye cəhətdən inkişaf etmiş ölkələri də dünya bazarında kapital və elmtutumlu məhsulların ixratcatçısına çevrildi.

**Asiya ölkələrində müasir iqtisadi modernləşmənin qisa xarakteristikası**. Asiya ölkələrində iqtisadiyyatın modernləşməsində tətbiq edilən yeni modeli səciyyələndirən ən müxtəlif detallar mövcuddur. Bu detallara ilk növbədə ona aid etmək olar ki, Asiya ölkələri içərisində Çin iqtisadiyyatın neokonservativ və neoliberal modellərinin optimal sintezini həyata keçirməyə başladı. Belə ki, dövlət iqtisadiyyatı fəal şəkildə tənzimləyir, bununla belə dövlət xərclərinin həcminin artmasına istiqamətlənmiş tədbirlərlə yanaşı, xüsusi mülkiyyətin genişləndirilməsinə, iqtisadi baxımdan təsərrüfat subyektlərinin müstəqilliyinin təmin edilməsinə istiqamətlənmiş zəruri tədbirlər həyata keçirirdi. Eyni zamanda, aşağı vergilər və iqtisadi subyektlərin azadlığı mahiyyət etibarilə iqtisadiyyatın inkişafının stimullaşdırılmasına və sənaye sahələrində kapital və elm tutumlu texnologiyaların genişləndirilməsinə əlverişli şərait yaradılırdı.

Asiya ölkələrində iqtisadi modernləşmənin müvəffəqiyyətini səciyyələndirən mühüm amillərdən biri də iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsinə istiqamətlənmiş proseslərin gerçəkləşdirilməsi, məzənnənin aşağı qiymətləndirilməsi səbəbindən ixracın hər tərəfli təşviq edilməsi ilə bağlı idi. Asiya ölkələrində iqtisadiyyatın modernləşdirilməsində iqtisadiyyatın innovasiyalaşdırılması da əhəmiyyətli rol oynayırdı. Bu istər ənənəvi sahələrdə və istərsə də qeyri-ənənəvi sahələrdə neotexnologiyaların tətbiq edilməsi ilə səciyyələnməklə yanaşı, iqtisadiyyatın infrastruktur sisteminin əhəmiyyətli dərəcədə inkişaf etdirilməsinə əlverişli şərait yaradırdı.

Aparılan tədqiqatlardan belə qənaətə gəlmək olar ki, XXI əsrin əvvəllərindən etibarən modernləşmə demək olar ki, yeni keyfiyyət müstəvisində özünü təzahür etdirməkdədir. Bu xüsusilə XXI əsrdə yeni iqtisadiyyatın formalaşdırılması ilə bağlı qlobal çağırışlardan da qaynaqlanır. XXI əsrin əvvəllərindən etibarən modernləşmə prosesinin əslində növbəti dalğası meydana çıxmağa başlamışdır ki, bu isə daha çox özünü qloballaşma, informasiyalaşmış cəmiyyət, intellektuallaşma, yəni bilik iqtisadiyyatının yaranması, postsənayeləşmə cəmiyyətinin formalaşması, özünütəyinetmə və digər bu kimi populyar terminlərlə, o cümlədən davamlı inkişaf modelləri ilə zənginləşmişdir. Əslində XXI əsrin əvvəllərindən etibarən formalaşmaqda olan iqtisadi modernləşdirmənin yeni dalğası iki faktorun təsiri əsasında inkişaf edir. Bunlardan birincisi insan kapitalıdır ki, bu əsas etibarilə elmi yeniliklərin və müasir biliklərin iqtisadiyyata tətbiq edilməsi ilə səciyyələnir. İkincisi isə elmi biliklərdən istifadə edilməsi əsasında elmi ideyaların iqtisadiyyatına yönəldilməsinə istiqamətlənmiş dövlət siyasətinin gerçəkləşdirilməsi ilə səciyyələnir. Bütün bunların nəticəsidir ki, artıq XXI əsrin əvvəllərindən etibarən dünyada kapital və elmtutumlu məhsulların istehsalı və bazarları kifayət qədər geniş şəkildə inkişaf etmişdir. Lakin bununla belə hələ də əmək tutumlu istehsal sahələri qalmaqdadır və bütün bunlar işçi qüvvəsindən daha çox istifadəni özündə əks etdirir.

## İstifadə olunmuş ədəbiyyat:

1. Крейг Калхун. Теория модернизация и глобализация: Кто и зачем их придумывал, Политро 11.01.2006

2. Бек Ульрих. Общество риска. На пути к другому модерну*: монография.* — Москва *: Прогр*есс-Традиция, 2000. — 384 с.